AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 3 (269), 63-70

**M E T O D İ K A**

# Anarın "Keçən ilin son gecəsi" əsərinin təhlili üzrə dərsin təşkili xüsusiyyətləri

***Zibeydə Səfərli***
"Azərbaycan dili və ədəbiyyat tədrisi" elmi-metodik jurnalının müxbir redaktoru. Azərbaycan.
E-mail: zibeydesafarli0910@mail.ru
https://orcid.org/0000-0003-1990-7967

**XÜLASƏ**
IX sinfin ədəbiyyat dərsində "Keçən ilin son gecəsi" dramının təhlili üzrə işdə şagirdlərin fəal iştirakı ilə pyesin obrazlar sistemi, mövzu, ideya və problematikası müzakirə olunur. Təcrübə göstərir ki, qarşıya qoyulan təlim məqsədlərinə çatmaq üçün bir dramaturq kimi Anarın yaradıcılığında həm mənəvi-əxlaqi məsələlər, həm də həyat həqiqətləri hər zaman diqqət mərkəzində saxlanılır. Əsərin təhlili üzrə dərs şagirdlərin idraki fəallığının davamlılığının saxlanılması zəruriliyini başlıca amil kimi qarşıya qoyur. Bu da interaktiv təlim zamanı problemli vəziyyətin yaradılması, dialoq və əməkdaşlığın zəruriliyi, müəllimin bələdçilik, şagirdin tədqiqatçılıq fəaliyyəti, müəllim-şagird münasibətlərində psixoloji dəstəyin, hörmət və etibarın qorunub saxlanması şəraitində öz təsdiqini tapır. Araşdırma göstərir ki, dramatik əsərin təhlilinə, ilk növbədə növ və janr xüsusiyyətlərinin öyrənilməsindən başlanılmalıdır. Bu, təlim prosesində müəllimin bir sıra çətinliklərin qarşısını almasında mühüm əhəmiyyət kəsb edir.

**AÇAR SÖZLƏR**
dramatik əsər, dərs, dramaturgiya, müəllim, şagird

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib – 04.08.2021
qəbul edilib – 10.08.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 3, VOL. 269, 63-70

**METHODS**

# Features of the organization of the lesson on the analysis of Anar's drama "The last night of the last year"

***Zibeyda Safarli***
Corresponding editor of the journal "Teaching of Azerbaijani language and literature". Azerbaijani. E-mail: zibeydesafarli0910@mail.ru
https://orcid.org/0000-0003-1990-7967

**ABSTRACT**
The system of characters, topics, ideas and problems of the play are discussed with the active participation of students in the analysis of the drama "Last night of the last year" in the literature class of the ninth grade. Experience has shown that it is prudent to focus students' attention on ethical issues and realities in order to achieve the set learning goals. In the lesson devoted to the analysis of the play, it is necessary to preserve the continuity of the cognitive activity of students as a key factor. This is confirmed by the fact that interactive learning creates a problematic situation, the need for dialogue and cooperation, teacher guidance of student research activities, psychological support, respect and trust in the relationship between teacher and student. The study shows that when analyzing a dramatic work in literature lessons, it is necessary to take into account the peculiarities of the genre. It is necessary to instill in students the ability to understand the author's position in a dramatic work, to use the text in substantiating judgments, to understand the work not as separate scenes, but as a whole.

**KEYWORDS**
dramatic work, lesson, dramaturgy, teacher, student

**ARTICLE HISTORY**
Received – 04.08.2021
Accepted – 10.08.2021

## Giriş / Introduction

Anarın dramaturgiyası, ilk növbədə, şəxsiyyət, insan haqqında ən vacib mətləbləri ifadə edir. Buna görə də onun dramlarında konflikt bilavasitə insan və onun taleyi ilə bağlı məsələlərlə əlaqələndirilir. Şəxsiyyətin taleyinə maraq Anarın yaradıcılığında, o cümlədən dramaturgiyasında həmişə ön planda olmuşdur. O, ustad sənətkar kimi daim sadə insanların həyatına, məişətinə maraq göstərmiş, yeni qəhrəman tipləri yaratmışdır. Ədibin "Keçən ilin son gecəsi" dramı da bu qəbildən olan əsərlərdəndir.

Görkəmli sənətkarın "Keçən ilin son gecəsi" dramı ümumtəhsil məktəblərinin 9-cu sinif ədəbiyyat dərsində tədris olunur. Əsərin tədrisinə ümumilikdə 4 dərs saatı ayrılmışdır. Əsərin məzmununun şagirdlərə mənimsədilməsi üzrə işə 2 müxtəlif dərs saatı; dramın təhlili üzrə işə 1 saat, əsər üzrə tətbiq, müzakirə, yaradıcı işə də həmçinin 1 saat vaxt ayrılmışdır [6, s.123].

Təhlil üzrə iş zamanı aşağıdakı standartlar tətbiq edilir:

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** | • Digər obrazların və müəllifin mühakimələrindən çıxış etməklə dramın qəhrəmanlarını səciyyələndirir. |
| **1.2.4.** | • Dramın mövzusunu, ideya-bədii xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir. |
| **2.1.1.** | • Dramla bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir. |
| **2.2.1.** | • Dramla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir [7, s.145]. |

**Motivasiya, problemin qoyuluşu.** Təhlil üzrə dərsin bu mərhələsində Anarın yaradıcılıq yolu ilə bağlı filmdən [1] və ya "Ötən ilin son gecəsi" televiziya tamaşasından [2] bir fraqment nümayiş etdirilir və şagirdlərin epizodlar barədə təəssüratları öyrənilir. Daha sonra rəy mübadiləsi əsasında tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** Anarın bir ailənin keçən ilin son gecəsini necə keçirməsinə həsr

[1] https://www.youtube.com/watch?v=BVnpR9oRv0Q
[2] https://www.youtube.com/ watch?v= hTEViT6PQ1c

olunmuş əsər yazmaqda başlıca məqsədi nə olmuşdur?

Sual əsasında şagirdlərin söylədiyi fərziyyə səciyyəli mülahizələr dinlənilir və sonda onlar ümumiləşdirilərək lövhədə qeyd edilir.

Metodist alimlər B.Həsənov və S.Əliyev əsərin təhlili üzrə dərsdə tədqiqat işini dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin." başlıqlı tapşırıqdan istifadəni məqsədəuyğun hesab edirlər. Məktəb təcrübəsi bu tövsiyənin uğurlu olduğunu söyləməyə əsas verir [7, s.160].

**Tədqiqatın aparılması.** Bu mərhələdə şagirdlər kiçik qruplarda birləşir, müəyyənləşdirilmiş təhlil səciyyəli sual və tapşırıqlar üzrə araşdırmaya başlayırlar:

1. Dərslikdəki "Əsərin təhlilinə hazırlaşın" mətnini diqqətlə oxuyun, təqdimata hazırlaşın.
2. Əsərin mövzusunu müəyyənləşdirin.
3. Həmidə ananın bayram axşamı düşüncələri, arzuları onu necə səciyyələndirir?
4. Ananın öz övladlarına münasibəti onun hansı hərəkətlərində və sözlərində daha qabarıq şəkildə əks olunur?
5. Ananın keçmişlə bağlı xatirələrində onun hansı səciyyəvi keyfiyyətləri üzə çıxır?
6. Övladlarının anaya münasibəti onları necə səciyyələndirir?
7. Ananın poçtalyonla söhbətində hansı mənəvi dəyərlərə münasibəti qabarıq şəkildə əks olunur?
8. Eynəkli kişini – poçtalyon obrazını səciyyələndirin. Onun xarakterindəki hansı cəhət diqqətinizi daha çox cəlb edir?
9. Atanın – Qəzənfərin maqnitafondakı səs yazısı onu necə səciyyələndirir?
10. Əsərdəki başlıca fikir nədən ibarətdir?

Şagirdlərə verilən suallar əsasında müzakirə aparıb təqdimat hazırlamaları üçün vaxt ayrılır. Müəllim kiçik qruplarda şagirdlərin fəaliyyətinə nəzarət edir, yeri gəldikcə onları istiqamətləndirərək zəruri tövsiyələr verir.

**Məlumat mübadiləsi və müzakirə.** Tədqiqata ayrılmış vaxt bitdikdən sonra təqdimatların mübadilə və müzakirəsi təşkil edilir. Kiçik qrupların araşdırma nəticələri üzrə təqdimatları dinlənilərək müzakirə olunur. Müzakirə zamanı müəllimlə yanaşı, kiçik qruplar da bir-birinin təqdimatlarına münasibət bildirir, əlavə suallardan istifadə edirlər [5, s.264-265]:

– Həmidəni fədakar həyat yoldaşı, qayğıkeş ana hesab etmək olarmı? Nə üçün? Fikrinizi əsərdən nümunələrlə əsaslandırın.
– Sizcə, ana bayram axşamı tənhalıq duyğuları yaşamaqda haqlı idimi?
– Övladlarının bayram axşamı ailə ocağı başında toplaşmamasına necə

münasibət bəsləyirsiniz?
- Sizcə, ədib drama Eynəkli kişi ilə ananın dialoqunu hansı məqsədlə daxil etmişdir?
- Kim haqlıdır: ana, yoxsa poçtalyon – Eynəkli kişi?
- Maqnitafondakı səs yazısı Qəzənfər obrazını necə səciyyələndirir?
- Qəzənfərin vəsiyyət səciyyəli səs yazısından hansı nəticəni çıxarmaq olar?

Məktəblilər müəllimin tapşırığı ilə dərslikdəki sual və tapşırıqlar barədə düşüncələrini bölüşür, Həmidə surətini təhlil etmək üçün, ilk növbədə, onun nitqinə diqqət yetirir, xasiyyətindəki mühüm cəhətləri, əsərdəki digər qəhrəmanlara münasibətini müəyyənləşdirir, öz keçmiş və indiki həyat yolu, ailəsi, övladları haqqında fikirlərinə diqqət yetirirlər.

Müzakirə zamanı qeyd edilir ki, cəmiyyətdə, ailədə insanların bir-biri ilə ünsiyyəti həyatın təbii qanunlarındandır. Lakin ünsiyyət insan xarakteri, həyat mövqeyi ilə bağlı mürəkkəb, daim inkişaf və dəyişmədə olan canlı prosesdir. Bu məsələyə laqeyd yanaşan insanların aqibəti isə əksər vaxt acı olur, onlar çox zaman təklənir, tənhalığa məruz qalırlar.

Dramın baş qəhrəmanı Həmidə vaxtilə uğurlu gələcək vəd edən müğənnilikdən ailə səadəti naminə əl çəkməli olur. Lakin o, taleyindən şikayətlənmir, cəmiyyətin fəal həyat mövqeyinə, yüksək mənəvi dəyərlərə malik övladcanlı, fədakar ana, qayğıkeş, həssas həyat yoldaşı olaraq qalır. O, ünsiyyətcildir, övladları, qonşusu Səkinə, Eynəkli adam və rabitəçi qızla söhbəti onun mənən saf bir insan olduğunu təsdiqləyir.

Həmidə ətrafında, ailəsində baş verən hadisələrə fəal münasibət bəsləyir, çünki laqeydlik hissi onun dərin hissiyyatlı təbiətinə yaddır. O, yeni il ərəfəsində, bayram axşamını tək keçirməli olsa da bədbinləşmir, iç dünyasındakı müvazinət pozulmur. Beləliklə, Anar mahir bir sənətkar kimi, ilk baxışda adi görünən həyat hadisəsinə dərin əxlaqi-mənəvi mahiyyət qatır, oxucunu düşünməyə vadar edir.

Şagirdlərin fikrincə, dramaturq oxucunu əsərdə fərqli obrazlar, xarakterlər vasitəsilə cəmiyyətin bir özəyi olan ailənin iç dünyasına nəzər salmağa sövq edir. Əsərin əsas surəti olan Həmidənin timsalında əsl ana obrazı yaradılmışdır. Müəllif əsərdə hadisələrin dramatik inkişafı zəminində ananı müxtəlif xarakterli insanlarla qarşılaşdıraraq, müxtəlif vəziyyətlərlə üzləşdirir. Ananın davranışı, düşüncələri onun mənəvi saflığını, həyata, insanlara olan inamını ifadə edir. Bir çoxları həyatda qarşılaşdığı haqsızlığa, çətinliyə dözməyib ruhdan düşdüyü halda, Həmidə gələcəyə inamla baxır, övladlarının yeni nəslin layiqli davamçıları olacaqlarına inanır.

Həmidə keçən ilin son gecəsi həyatdan küskün, bədbin ovqatlı, yeni nəslin

nümayəndələri barədə tənqidi fikirlər söyləyən Eynəkli kişi ilə qarşılaşsa da, özünün haqlı olduğuna inanır. Bu, onun Eynəkli kişi ilə dialoqunda, düşüncələrində açıq-aşkar özünü büruzə verir.

Təhlil prosesində məktəblilər dramda işlənilmiş bədii təsvir və ifadə vasitələrinin obrazlılığın artırılmasında rolunu aydınlaşdırır, əsərin bədii dil baxımından mükəmməlliyini qeyd edirlər.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Bu mərhələdə müzakirə nəticəsində şagirdlərdə əsərin ideyası ilə bağlı belə bir fikir formalaşır ki, dramaturq bir ailənin timsalında müxtəlif nəsillərin nümayəndələri arasında qırılmaz bağın təbiiliyini və onun mənəvi dəyər daşıdığını əks etdirmək ideyasını irəli sürmüşdür. Müxtəlif nəsillər arasında fərqlər olması təbiidir, hər yeni nəsil özü ilə bir yenilik, inkişaf gətirir, lakin bu inkişaf əvvəlki nəslin mənəvi dəyərləri kimi bir təməl üzərində yaranmalı, nəsillər arasında mənəvi-əxlaqi varislik gözlənilməlidir. Övladlar ata-ananın həyatının davamçıları olmalıdırlar. Bu, həyatın pozulmayan qanunudur.

Həmidə əri Qəzənfərin maqnitafonda  səs yazısını dinlədikdən sonra əsl ana kimi hərəkət edir, övladlarının gələcəyini düşünür. Qəzənfərin səs yazısı onda təskinlik yaradır [1, s.46]. O, başa düşür ki, bir ana kimi onun borcu cəmiyyət üçün faydalı olan saf mənəviyyatlı, təmiz əxlaqlı övladlar tərbiyə etməkdir.

Dərsdə nəticənin çıxarılması, ümumiləşdirmə aparılması mərhələsində müzakirə zamanı söylənilən fikirlər ortaq məxrəcə gətirilir. Şagirdlərdə belə bir təsəvvür formalaşır ki, əsərdə dramatizm ilin son gecəsində yalnız qalan ana ilə övladlarının münasibətindən yaranır. Əsərdə bir tərəfdən ailə ənənələrinə sadiq olan Həmidə ananın Yeni ili övladları ilə birlikdə keçirmək arzusu, digər tərəfdən isə onun oğul və qızlarının istəkləri arasında yaranan təzad dramatizmin əsasını qoyur. Lakin əsərin sonunda maqnitafonda əri Qəzənfərin səs yazısını dinləyən ana başa düşür ki, övladların quş kimi yuvasını tərk edib pərvazlanması həyatın qanunudur. Təki onlar mənəviyyatlı insan olsunlar. O, qayğıkeş ana kimi təkcə bir bayram axşamının yaratdığı təzadlı hisslər, duyğularla yaşamır, həm də övladlarının, nəvələrinin, gələcək nəsillərin, ailənin, cəmiyyətin qayğısına qalır. Sabahımızın saf mənəviyyatlı, təmiz əxlaqlı insanlar yetirməsi üçün bu gündən möhkəm zəmin hazırlayır. Bu zaman o, heç kimi günahlandırmır, milli-mənəvi dəyərlərimizə, xalqımızın adət-ənənələrinə arxalanır.

Şagirdlər belə nəticəyə gəlirlər ki, Anarın “Keçən ilin son gecəsi” dramının məfkurəvi qayəsi oxucuya, tamaşaçıya aşılamaq istədiyi başlıca fikir bilavasitə milli-mənəvi dəyərlərlə bağlıdır. Əsər oxucunu milli özünüdərkə, xalqımızın əsrlərin süzgəcindən keçib gələn, insanı saflaşdıran, ona ləyaqət, ucalıq gətirən mənəvi dəyərlərə sadiq olmağa səsləyir.

Müəllif əsərdə müasirimiz olan insanların səciyyəvi xüsusiyyətlərini, ailə dəyərlərinə münasibətdə cəmiyyətdəki fərqli düşüncə sahibi olan Eynəkli kişi kimi fərdlərin xarakterini, həyat mövqeyini təbii boyalarla, obrazların nitqi və davranışları ilə əks etdirməyə nail olur. Dramın, demək olar ki, bütün qəhrəmanlarının dilində özünəməxsusluq, fərdilik var. Onların nitqi və əməlləri ilk baxışda nəzərə çarpmayan daxili dünyalarını açıb göstərir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə aparılarkən müvafiq meyarlara müraciət edilir, kiçik qrupların fəaliyyətində əməkdaşlıq, fəallıq, qrup üzvlərinin araşdırmada iştirak səviyyəsi, müstəqilliyi, söylənilən fikirlərin əsaslandırılması, müzakirədə iştirakı nəzərə alınır.

**Ev tapşırığı.** Təklif olunan mövzulardan birini seçib yazılı təqdimat hazırlayın.

1. "Müxtəlif nəsillərin qarşılıqlı münasibəti" mövzusunda esse yazın.
2. "Dramda Həmidə surətinin təhlili" mövzusunda inşa yazın.

## Nəticə / Conclusion

Məktəb təcrübəsində müəllimlərin bir qisminin dramatik əsərlərin təhlilinə elmi-metodik zəmində yanaşmamaları ciddi qüsur kimi qeyd edilməlidir. Elmi araşdırmalarda göstərildiyi kimi, dramatik əsərin dərsdə və müstəqil oxu zamanı qavranılmasına, təhlilinə ilk növbədə növ və janr xüsusiyyətlərinin öyrənilməsindən başlanılmalıdır. Bu, təlim prosesində müəllimin bir sıra çətinlikləri aradan qaldırmasında mühüm əhəmiyyət kəsb edir.

Dram əsərlərinin məzmunu və təhlili üzrə dərslərdə əqli hücum, müzakirə, ikihissəli gündəlik, rollar üzrə oxu, müsahibə, Venn diaqramı kimi fəal/interaktiv təlim metodlarının, fərdi, cütlük, kiçik qrup və böyük qrup şəklində iş formalarının tətbiqi məktəblilərin fəallıq və müstəqilliyinə, mütaliə vərdişləri və təhlil bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Anar. (2005). Əsərlər. Pyeslər. Bakı, Nurlan. 690 s.
2. Anar. (1984). Sizi deyib gəlmişəm. Bakı, Azərnəşr. 246 s.
3. Anar – 70. (2008). Qobustan. № 1, s.24-25.
4. Əmrahoğlu A. (2012). Mən xoşbəxtəm ki, anlamağa qadirəm. Bakı, Elm və təhsil. 88 s.
5. Həsənli B. (2016). Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim. 452 s.
6. Həsənov B., Əliyev S., Mustafayeva A., Verdiyeva N. (2017). Ədəbiyyat. 9-cu sinif üçün dərslik. Bakı, Bakınəşr. 224 s.
7. Həsənov B., Əliyev S., Mustafayeva A., Verdiyeva N. (2017). Ədəbiyyat. 9-cu sinif. Metodik vəsait. Bakı, Bakınəşr. 224 s.
8. Hüseynoğlu S. (2019). Ədəbiyyatın məktəbdə öyrənilməsi. Bakı, 264 s.